***Murad Qudyalçaylı***

***Qara səhifələr***

Bu kitabda
Bir səhifə - 20 yanvar,
Bir səhifə - Daşaltı,
Bir səhifə - Xocalı...
Sonra – Laçın,Şuşa
Bilmək olmur necə boşaldı.
Hərəsi bir cür yazıldı tarixə,
Amma hamısının
Bir rəngi var: qara.
Faciəm elə dərin,
Elə uzundu,
Bilmək olmur –
Bayraqlardan onlara keçdi bu rəng,
Yoxsa onlardan bayraqlara?
Bildiyim odur ki,
Qara lülələrin
İşığa kor gözüylə,
Tankların, topların
mərmi oduyla ,güllə közüylə
yazıldı bu qara,mübhəm,
məchul səhifələr.
Qəm yemə könlüm,
Ağlama, gözüm.
Dünyaya axır bu səhifələri
oxuya bilən bir oğul gələr.

***Qudyalçaylı M. Qara səhifələr : şeir // Azərbaycan harayı. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. – S.257-258.***